Məktəbdənkənar təhsil müəssisələrində Xocalı soyqırımının otuz birinci ildönümünə həsr olunmuş bir sıra tədbirlər keçirilib.

Uşaq-gənclər inkişaf mərkəzlərində "Unutsaq, unudularıq", "Tarixdən silinməyən faciə", "Xocalı – şəhid şəhər", "Xocalı – bəşəriyyətə qarşı tarixi cinayət", "Xocalı – qan yaddaşımız", "Əsrin faciəsi" adlı ədəbi-bədii kompozisiyalar, "dəyirmi masa"lar, "açıq dərs"lər keçirilib, əl işləri və rəsmlərdən ibarət sərgilər təşkil olunub, eləcə də "Ana harayı" abidəsi ziyarət edilib.

Tədbirlər zamanı uşaqların ifasında vətənpərvərlik mövzularında şeirlər səslənib, faciə qurbanlarının xatirəsi ehtiramla yad olunub.

Uşaq-gənclər idman-şahmat məktəblərində və idman liseylərində Xocalı soyqırımı ilə bağlı məktəblilər arasında müxtəlif idman növləri üzrə yarışlar və daxili birinciliklər keçirilib.

Qeyd olunan tədbirlərə 2000-dən çox iştirakçı qatılıb.

Tədbirlərin keçirilməsində məqsəd uşaq və gənclərdə vətənpərvərlik hissini yüksəltmək, xalqımıza qarşı törədilən cinayətlər barədə onlara məlumat vermək və soyqırımda həlak olanların xatirəsini ehtiramla yad etməkdən ibarətdir.